AZƏRBAYCAN RESPUBLİKASININ DÖVLƏT TURİZM AGENTLİYİ

AZƏRBAYCAN TURİZM VƏ MENECMENT UNİVERSİTETİ

Elmi-tədqiqat istiqamətində birgə təşəbbüsləri, institusional əməkdaşlığı təşviq edən

QAYDALAR

ATMU-ET-Q(ETİ)-01

Bakı-2023

Dəyişikliklər haqqında məlumat			
Tarix	**Versiya**	**Tərtib etdi**	**Dəyişikliyin izahı**
27.12.2023	01	f-r.e.n.,dos. N.B.Nəsirli	İlkin versiya

Təsdiq edirəm

Azərbaycan Turizm və Menecment Universitetinin

rektoru _____ İlham Məmmədov

"27" _____ 2023-cü il

ATMU-ET-Q(ETİ)-01

Azərbaycan Turizm və Menecment Universiteti

Elmi-tədqiqat istiqamətində birgə təşəbbüsləri, institusional əməkdaşlığı təşviq edən

QAYDALAR

Universitetlər, elmi-tədqiqat təşkilatları arasında informasiya mübadiləsi üçün birgə platformaların təşkili və birgə layihələr üzrə əməkdaşlığın dəstəklənməsi və inkişafı üçün sistemli iş.

Elmi layihələr üçün tərəfdaşların seçilməsində və yeni maliyyə mənbələrinin cəlb edilməsində köməklik.

Birbaşa əməkdaşlıq əlaqələrinin inkişafı üzrə birgə prosesin inteqrasiyasını stimullaşdırmaq üçün dövlətlərarası və institusional strukturlarının fəaliyyətinin aktivləşdirilməsi.

Universitetlərin bazasında birgə layihələrdə qarşılıqlı əlaqə üçün təşkilati, idarəetmə, elmi və tədqiqatcı kadrlarının hazırlanması və ya təkmilləşdirilməsi.

Layihələrə zəruri maliyyə və resurslarının toplanması və cəlb edilməsi.

Tədqiqat və innovasiya fəaliyyətinin maliyyələşdirilməsinin həyata keçirilməsi üçün ölkələrarası birgə fondlarının yaradılması imkanları nəzərdən keçirilməlidir.Beynəlxalq birgə tədqiqatların aparılması üzrə əməkdaşlıqların qurulması və fəaliyyətin tənzimlənməsi

Mübadilə proqramları çərçivəsində tədqiqatçıların cəlb olunması

İkili əməkdaşlıqlar çərçivəsində elmi tədqiqatların formalaşdırılmasına və fəaliyyətin aktivliyinin həyata keçirilməsi

ATMU-da elmi-tədqiqat məqsədlərinin uzunmüddətli strateji inkişaf proqramının istiqamətlərinə uyğun elmi-tədqiqat siyasətinin, onun məqsədlərinin və prioritet tədqiqat sahələrinin və istiqamətlərinin təşviq mexazimlərini və tədqiqat fəaliyyətinin idarə olunmasını əhatə edən elmi-tədqiqat strategiyasının missiyasına və hədəflərinə uyğun elmi-tədqiqat strategiyası mövcuddur. Strategiyada elmi-tədqiqat fəaliyyətinin təlim və tədris prosesinə inteqrasiyası:

- professor-müəllim heyətinin performansı
- elmi-tədqiqat strategiyasının müəssisədəki akademik heyət, yerli və xarici tərəfdaşlar üçün əlçatanlığı
- elmi-tədqiqat strategiyasının hazırlanmasında maraqlı tərəflərin iştirakı tam nəzərə alınmalıdır.

Tədqiqat resursları olaraq: ATMU-nun infrastrukturundan, maddi və texnoloji resurslarından istifadə edilir. ATMU-da elmi-tədqiqat fəaliyyəti üçün büdcəsindən maliyyə resursu ayrılmır onun elmi-tədqiqat məqsədlərinə və strategiyasına uyğunluğu haqqında heç nə demək olmur.

- Aktiv elmi tədqiqatla məşğul olan professor-müəllim heyəti yalnız öz istəyi və təşəbbüsü ilə elmi-tədqiqat fəaliyyət göstərir.
- Aktiv elmi tədqiqatla məşğul olan gənc tədqiqatçılar "Tələbə elmi cəmiyyəti" və "Tələbə təşkilatı", fakultə dekanlıqları və kafedralar tərəfindən təyin olunan elmi rəhbərlər xətti ilə ümumi elmi- tədqiqat işlərinə və müsabiqələrə qoşulurlar.
- Tədqiqatçıların müxtəlif istiqamətlər üzrə beynəlxalq elmi məlumat bazalarına çıxışı internet vasitəsilə həyata keçirilir.
- Nəticə yönümlü elmi-tədqiqat işlərinin davamlılığının təmin olunması üçün stimullaşdırıcı mexanizm yoxdur və bunun hazırlanması istiqamətində addımlar atılmaqdadır.
- Elmi-tədqiqat fəaliyyəti nəticəsində əldə olunan gəlirlərin artım dinamikası
- Müxtəlif elmi müəssisə və təşkilatlarla tədqiqat sahəsində əməkdaşlıq əlaqələrinin daha da inkişaf etdirilməsi istiqamətində işlər davam etdirilir.

Elmi-tədqiqat fəaliyyətinin idarə edilməsi prosesi ATMU-da kafedralar, dekanlıqlar, aid təşkilatı strukturlar, elm və innovasiya şöbəsi tərəfindən həyata keçirilir. Bütün bu fəaliyyətlərə nəzarəti və rəhbərliyi Elm və inkişaf məsələləri üzrə prorektor həyata keçirir.

Professor–müəllim heyəti tədqiqat fəaliyyətinə yalnız könüllülük əsasında qoşulurlar. Tədqiqat istiqamətləri və tədqiqat mövzuları kafedralarda müəyyənləşdirilir və fakultə elmi-şurasında, Universitetin elmi-metodiki şurasında müzakirə edildikdən sonar ATMU-nun böyük elmi-şurasında təsdiq edilir. Professor-müəllim heyətinin tədqiqat bacarıqlarını inkişaf etdirməklə bağlı planlar və fəaliyyətlər müxtəlif formalarda əsasən ATMU-nun qoşulduğu beynəlxalq layihələr beynəlxalq proqramlar, layihə üzrə əməkdaşlıq işləri təlimlər vasitəsilə həyata keçirilir.

Beynəlxalq layihələrdə ATMU-nun professor-müəllim heyətinin, eyni zamanda inzibati heyətinin cəlb edilməsi, ölkədaxili və ya xaricində təlim həftələrində iştirakları və daha sonra ATMU heyəti üçün re-treninqlər təşkil edərək layihə haqqında məlumatlandırma ilə yanaşı heyətin cəlbi, bu yönümdə araşdırmaların artırılması, fikir mübadiləsi, təcrübənin paylaşılması nəzərdə tutulur. Layihələr çərçivəsində tərəfdaş universitetlərlə əməkdaşlıqlar qurularaq müxtəlif layihələrdə iştiraklılığı artırmaq mümkündür. Professor-müəllim heyəti arasında aparılan rəy sorğusu, professor-müəllim heyətinin tədqiqat səriştələrinin monitorinqi və təkmilləşdirilməsini göstərən dəlillər, hər kvartalda bir dəfə struktur bölmələrindən elm və innovasiya şöbəsi tərəfindən tələb edilən hesabatlara verilən cavabla müəyyən edilir. Son nəticədə elmi tədqiqat işlərinin hər ilin noyabr-dekabr aylarında aparılan yekun müzakirədə öz üzərinə öhtəlik götürən əməkdaşın tədqiqatı necə tamamladığı məlum olur və tədqiqatın sonrakı talehi müəyyən edilir (yerli və ya xarici jurnalda çap edilsin, tədqiqat davam etdirilsin,tədrisə tətbiq edilsin və s.).

Qeyd edək ki, təkcə elm və innovasiya şöbəsi tərəfindən təşkil edilmiş nüfuzlu beynəlxalq konfransların sayı ikidir. Elm və təhsil sahəsində ATMU bir neçə beynəlxalq qrant layihəsinə cəlb edilmişdir.

ATMU-da daimi ştatda olan professor-müəllim heyətinin hesabat dövründə (H) indeksi 5-dən yuxarı olan əməkdaş bir nəfərdir. Elmi-tədqiqat fəaliyyətində və təhsildə akademik dürüstlük mexanizminin mövcud olması ATMU-da 2015-ci ildən antiplagiat sisteminin mövcudluğu Plagiat. PL MMC şirkəti ilə bağlanmış müqavilələr, antiplagiat siyasətinin mövcudluğunu və işləmə mexanizmini illk hesabatlar, görülmüş preventiv tədbirlər, maraqlı

tərəflər üçün əlçatan olduğunu və istifadəsini təsdiq edən sənədlər kimi lazım olan qurum və təşkilatlara təqdim edilmiş arayışlar təmin edir.